# YENİ ZAMAN - YENİ TƏLƏB

Kimsə deyə bilməz ki, bir insan həyatı mənəvi ucalığına rahatlıqla, hamar yolla çata bilib. Hər kəsin özünə görə həyatı çoxlu dolanbaclardan eniş-yoxuşlardan keçir. Ümumiyyətlə bir insan həyatını sadə və anlaşıqlı dillə yazmaq onu örnəyə çevirmək hər kəsin anlaya biləcəyi bir formada ifadə etmək yazarın ümdə borcudur. Düşünmək olar ki, Sevda Əlibəyli də mürəkkəb həyat mexanizmini anlaşıqlı bir tərzdə oxucuya çatdırmaq yolu keçir. Bunun üçün o, əsərini müxtəlif təəssüratlar, xatirələr, mətbuat qeydləri əsasında qələmə almağa, oynaq bir strukturla kitaba çevirməyə çalışmış və demək olar ki, məqsədinə nail olmuşdur.

Ədəbi qəhrəmanın həyat yolunu zaman müstəvisində izləyir. Təbii ki, bu halda istər-istəməz dövrə də, insanları ən sərt, ən ağır sınaqlar qarşısında qoyan zamana da münasibət bildirməli olur. Şəddad Cəfərovun vətənə qayıdışı və burada təcrübəsinə, mənəvi potensialına, elmi və idarəetmə imkanlarına uyğun işlə təmin edilməsi prosesi çox istirablı, əzablı bir mərhələdən keçməli olduğu üçün müəllif də həmin zamana aid mənəvi gərginlikləri ədəbi qəhrəmanın əhval-ruhiyyəsinə uyğun verir. Demək olar ki, ölkədə hədsiz dərəcədə gərginlik var, ahəngdar həyat yoxdur. Xaos baş alıb gedir. İnsanlar işləməkdən sanki bezib, Azərbaycan demək olar ki, ikihakimyətlilik mərhələsini yaşayır. Bir tərəfdən rəsmi qurumlar, digər tərəfdən mitinqlər dalğasının gətirdiyi tələblər. Şəddad Cəfərov xeyli müddət işsiz qalır. Onu rəsmi məktubla, rəsmi tələblərlə Ulyanovskdan dəvət edib gətirsələr də, işlə təmin edə bilmirlər. Bu da istər-istəməz onun mənəviyyatına təsir göstərir. Bütün çətinliklərə baxmayaraq dözüm göstərməklə, hadisələrin axarına təmkinlə yanaşır. Proseslərin necə inkişaf edəcəyi dumanlıdır. Amma buna baxmayaraq müəllifin qeyd etdiyi kimi, Azərbaycan artıq öz qurumlarını özü idarə edirdi. Hələ iqtisadi müstəqillik olmasa da, siyasi müstəqillik rəsmən elan olunmuşdu. Belə halda Azərbaycan mətbuatı da müstəqillik dövrünün tələblərinə uyğunlaşmağa çalışırdı: ""Kommunist" nəşriyyatı yaranandan Moskvanın tabeliyində olmuşdu. Respublika müstəqillik əldə edəndən "Azərbaycan" adını daşıyır". Azərbaycan Mətbuat Komitəsi də, artıq Mətbuat və İnformasiya Nazirliyinə çevrilmişdi. Nəşriyyat daha Moskvanın deyil, nazirliyin tabeliyinə verilmişdi. Nazirliyin də rəhbəri məlum olduğu kimi milli azadlıq hərəkatının liderlərindən biri, şair-publisist, millət vəkili Sabir Rüstəmxanlı idi. Axır ki, 1992-ci ilin may ayından Şəddad Cəfərov Azərbaycan nəşriyyatına direktor təyin olunur. Məlum məsələdir ki, hər təyinatın arxasınca müxtəlif cür rəylər, təqdiredici, inkar edici münasibətlər və bəzəndə qeybətlər, şayiələr baş alıb gedir. İnsafən Şəddad Cəfərovun böyük mətbuat müəssisəsinə rəhbər təyinatı həm həmin müəssisənin kollektivi, həm də mətbuat işçiləri tərəfindən rəğbətlə qarşılanır.

Yeni rəhbər elə ilk gündən nəşriyyatı başdan-başa gəzir, sexlərdəki vəziyyətlə tanış olur, hansı şəraitdə işləyəcəyini aydınlaşdırmağa çalışır. Real vəziyyətlə, başqa sözlə çətin bir durumla qarşılaşan direktorun hansı mühitdə olduğunu müəllif maraqlı detallarla təqdim edir: "İşə başladığı ilk gündən istehsalatın vəziyyətini öyrənmək məqsədiylə bütün korpusları, sex və sahələri gəzir. Gəzdikcə çatışmazlıqlarla üzləşir. Çatışmazlıqlar, əyər-əskiklər əhvalını pozur. Müavin işlədiyi illər gözlərinin önünə gəlir. O zamanın işgüzarlığı ilə indiki arasında böyük fərq var. Vaxtilə quraşdırılmış çap maşınları sıradan çıxmaq üzrədir. Bəzilərinin təmirə ehtiyacı var. Milyon manatlar bahasına başa gələn çap maşınlarından istifadə edilmir. Kompüterləşmə ləng həyata keçirilir. Nəşriyyat respublika bayrağını və gerbini qəzetlərdə rəngli çap edə bilmir. İşçilərin əksəriyyəti yaranan vəziyyətlə əlaqədar nəşriyyatdan uzaqlaşmaq istəyir. Hiss edir ki, vəziyyətdən bütün kollektiv narazıdır. Bütün bu çətinliklərlə üzləşən direktor öz qüvvəsinə və iş qabiliyyətinə arxayın olduğundan inamla işə başlayır". Elə məqamlar, elə hadisələr var ki, onu ümumiləşdirmək də olar. Ümumi nəticəni oxucu diqqətinə çatdırmaqla da keçmək olar. Amma elə məsələlər var ki, hətta ilk baxışdan əhəmiyyətsiz görünə biləcək cizgilər var ki, onu yalnız olduğu kimi təqdim etməklə müəllifin obraza münasibətini oxucuya daha mükəmməl çatdırmaq olar.

Sevda Əlibəyli uzun müddət ədəbi qəhrəmanını öyrənməyə çalışıb. Hətta onun gündəliklərini gərginlik məqamlarında öz təəssüratını yazdığı əlyazma vərəqlərini də oxuyub, çalışıb ki, oxucusunu ədəbi qəhrəmanının görünməyən tərəfləri ilə mümkün qədər daha çox tanış eləsin. Bu baxımdan yanaşanda onun müəllif qeydləri əsasında direktorun iş planını diqqətə çəkməsi müstəqillik dövrü Azərbaycan gənci üçün düşünürəm ki, çox əhəmiyyətlidir: " İlk gündən özünə iş planı və gündəlik tutur: "İnsanlara qayğı və diqqət; İş əhval-ruhiyyəsi; Kargüzarlıq işlərini latın qrafikası ilə həyata keçirməli; Müşavirə və iclasları ana dilində keçirməli; İşə müfəttiş kimi yox, köməkçi kimi münasibəti; Nizam-intizam və texnoloji nizam-intizam; Keyfiyyət nizam-intizamdan başlanır; Hər kəsin qaldırdığı məsələni yerində və vaxtında həll etmək; Sifarişçilərin qəbulu-günortaya qədər; Qəzet sexinin işinə kömək və diqqəti artırmalı; Yığma sexinin vəziyyəti narahatlıq doğurur; Narahat sexlərin müzakirəsi; Su avtomatlarının təmiri; Pillələrin təmiri; Ayaq yollarının təmiri; Həyət-bacanın təmizliyi; İşığın, suyun qənaətlə işlədilməsi; Qəzet kağızına qənaət; Pillələrdə külqabıların qoyulması; Evlərə isti suyun verilməsi İqtisadi təminat-əmək haqları; Anbardakı hazır jurnalların siyahısı; Planlar çox aşağıdır; Hamı xalat geyməli; Debitor borcların həlli; Bütün otaqların səliqəyə salınması; Sexlərdə istirahət otaqlarının yaradılması; Sexlərdə hava soyudulmur; Məzuniyyət cədvəli; boşdayanmalar və səbəbləri; Qəzet və jurnalların gecikməsi; Qəzet sexində avadanlıqların dəyişdirilməsi; Bu onun iş planı və gündəliyinin qısa bir hissəsidir". Həmin dövrün şahidi kimi mənim üçün maraqlı olan odur ki, siyasi mühitin kəskin böhran çağlarında yenə iş məsuliyyəti ilə, iş qayğıları ilə mətbuatı cəmiyyətin siyasi və mənəvi mühiti ilə uyğunlaşdırmaq naminə necə çalışan insanlar olub. Əslində, həmin dövürdə yuxarıdan aşağıya qədər badı-başnaçılıq mühiti idi. Hər kəsə də elə gəlirdi ki, heç kim ondan heç nə tələb edə bilməz. Amma Şəddad Cəfərov kimi şəxslər yaxşı başa düşürdü ki, nə qədər xaos olur olsun, yenə cəmiyyətin həyatı mətbuatdan, ümumi ahəngdar iş rejimindən asılıdır. Və elə buna görə də hətta kollektivdə olan radikallarla da dil tapmağa çalışır, istəyir ki, adamları öz dəzgahının arxasına qaytara bilsin, yoxsa, əks təqdirdə cəmiyyət informasiyasız qalar, məlumatsızlığın gətirdiyi bəlalar daha betər xaosa səbəb olar: " Şəddad Cəfərov "Azərbaycan" nəşriyyatına 1992-ci ilin may ayının 21-də baş direktor təyin olunur. Elə ilk tanışlıqdan sonra iclas çağırıb tapşırıqlarını verir". Bu adicə bir faktdır. Təyin olunan günün arxasınca insanları bir yerə toiplamaq cəhdi haqqında məlumatdır.

O, təbiət etibarı ilə mətbuata, kitaba, yazıya yalnız naşir kimi, poliqrafçı kimi bağlı deyidi. O həm də, imkan düşdükcə gündəlik həyatının təəsüratını yazıya gətirməyə çalışır. Sevda Əlibəyli həmin gündəliklərlə kitab üzərində işləyərkən tanış olub. Görünür elə bu səbəbdən də yeri düşdükcə gündəliklərdən müəyyən təəsürat yaradan hissələri yazısının arasına gətirir: "Gündəliyini vərəqləyirəm. 01.06.1992-ci ildə keçirilən iclasın yekunları barədə yazır: "Keçən həftə ərzində xeyli canlanma hiss olundu. Bəziləri məni düzgün başa düşdülər və işə həvəslə girişdilər. Bəziləri isə "baxarıq" deyib gözləmə mövqeyini tutdular. Kompüter yığımını sürətləndirməli... və s." İlk baxışdan gündəlikdən götürülmüş cümlələr əlaqə baxımından bir-birindən xeyli aralıdır. Amma əslində hər cümlə gündəlik həyatın ritmini təqdim edir. Və eyni zamanda cəmiyyətdəki mənəvi gərginliyi nəşriyyatın işinə də necə nüfuz etdiyini yada salır.

O dövrdə Azərbaycan sözü artıq dünyaya qürur çağırışı kimi mətbuatdan keçib-gedirdi. Və şübhəsiz, Şəddad Cəfərov da yaxşı bilirdi ki, Azərbaycan nəşriyyatının ahəngdar fəaliyyəti Azərbaycanın özünün dünya ilə mənəvi bağlılığı körpüsüdür. Ona görə birinci növbədə bu körpünün təhlükəsizliyi qorunmalıdır. Buradakı iş həyatı bərpa olunmalıdır. Sevda xanım gündəliyi izləməkdə davam edir və təəsüratını belə ümumiləşdirir: "Beləcə gündəliyi iyun ayının 1-dən noyabrın axırınadək vərəqləyib oxuyuram. Hər günün, həftənin, ayın gündəliyi, planı, hesabatı nəticəsi. Sabah Milli Dirçəliş günüdür. Hamını təbrik etməli. Bayram axşamı istəyirəm kollektivin əhval-ruhiyyəsi yaxşı olsun. Lakin bəzi məsələləri də nəzərə çatdırmaq istəyirəm". Şəddad müəllimin gündəliklərindən gələn təəsürat bizi həmin günlərə qaytarır: "Əvəllər planımızı, işimizi başqaları yoxlayırdı. İndi isə özümüz işə cavabdehik. Maaşımız gördüyümüz işdən asılıdır. İstənilən planı verə bilsək, dekabrın birindən maaşları artıracağam. Planı vermək üçün kitab, blank, etiket və s. məhsulların çapına diqqət yetirməliyik. İşlərin keyfiyyəti o qədər də ürək açan deyil. Məhsullarımızda çoxlu qüsurlar var. Bunun üçün sex rəisləri, mühəndislər konkret tədbirlər görmürlər. Təchizat məsələsində çətinliyimiz çoxdur. Üç həftədir Rusiyaya pul keçirə bilmirik. Hər milyona bir milyon rubl istəyirlər. Biz də bu yolla getmirik. Axşam təchizat şöbəsinin rəisi Moskvaya gedir. Kollektivin həyat tərzini yaxşılaşdırmalıyıq. Yardımçı təsərrüfatımızı geri almışıq. Onu inkişaf etdirməliyik. Bu sahədə həll olunası çoxlu məsələlər var: Bol məhsul yetişdirmək və onu ucuz qiymətə işçilərə satmaq. Mağaza açmaq, emalatxanalardan istifadə etmək. Bunlardan başqa nəşriyyat evlərində, eləcə də yataqxanada yaşayanların mənzil şəraitinə, uşaq baxçasına diqqəti artırmalı. Xeyriyyə marafonu. Görüləcək işlərin sənədlərini hazırlayıb bu həftə nazirliyə təqdim etmək. Noyabr ayının son həftəsi və son günü. Satış planı 20 milyon kəsirdə. Kitablarımız var və gözlənilir. Qəzetdə işləri başa vurmaq-yalnız keyfiyyətlə. Səliqə-səhman olmasa, keyfiyyət olmayacaq. Köhnə qəzet korpusu, veltelyatorlar, digər təmir işləri, qışa hazırlıq. Qəzet və jurnallarda müqavilə və s. Keçən həftənin yekunu: Dayanmalar oldu. Qəzet sexini su basdı. İşıq söndü, qəzetlər gecikdi. İlin axırıdır. Tələsmək lazımdır. Keyfiyyət ön plandadır." Bütün bunlar dövrü və həmin psixoloji vəziyyəti aşkarlamaq üçün ən dəqiq seçimdir. Çünki gündəlikdən götürülmüş ayrı-ayrı cümlələr dövrü o qədər dəqiq xarakterizə edir ki, hər kəsi həmin mühitə, zamana çəkib apara bilir. Çünki o dövrün həyat tərzi, psixoloji gərginlik həmin dövrün şahidlərinin yaxşı yadındadır. Gündəliklərdəki sözlərin mahiyyətini daha dəqiq ifadə etməli olsaq demək, Şəddad Cəfərov həmin dövrdə əsgər hünəri ilə döyüşüb. Sanki onun üçün mətbuat cəbhə olub. o da bu cəbhənin iradəli, mətin bir döyüşçüsü. Əslində o, iki cəbhədə döyüşürdü. Bir işin ahəngini təmin etmək. Bir də nəşriyyatın dövlətdən asılı olan problemlərini həll etmək. Əslində isə o dövrdə dövlət özünün başı hayında idi. Amma Şəddad Cəfərov çalışırdı ki, dövlətin olan imkanlarından mətbuata güc, enerji ayrılsın. Əlbəttə, Sevda Əlibəylinin dediyi kimi bütün bunlar onun böyük fəaliyyətinin ayrı-ayrı hissələri, sahələri idi: "Bunlar Şəddad Cəfərovun qalın-qalın dəftərlərdəki iş planlarının lap cüzi hissəsidir. Özünə qarşı da tələbkardır, kollektivə qarşı da. Nə qayğısını əsirgəyir, nə də tələbkarlığını. Və bu məsələləri çox zaman Milli Məclisin müzakirələrinə də çıxarır". Yeri gəldikcə Sevda Əlibəyli dövrün mətbuat qeydlərinə də istinad edir. Bu mətbuat qeydlərinin dövrə şahidlik baxımından əhəmiyyəti çox böyükdür. Çünki indiki zamanla müqayisədə o vaxt insanlar fərqli bir həyat yaşayırdılar. İnsanlar sabahkı gün hansı hadisənin baş verəcəyini dəqiq təsəvvür edə bilmirlər. Yuxarıda qeyd etdiyimiz kimi hadisələr dumanlı bir axarda cərəyan edirdi. Ancaq Şəddad Cəfərov inamlı idi. Gələcəyə də kifayət qədər aydın bir baxışla münasibət bəsləyirdi. Bunu həmin dövrün mətbuat qeydlərindən də, Sevda Əlibəylinin təqdimində görə bilirik: "23 iyul 1992-ci il "Həyat" qəzetinin parlament müxbirinin yazısında oxuyuruq: "Azərbaycan" nəşriyyatının baş direktoru Şəddad Cəfərov fikirlərini "Biz büdcədən heç nə istəmirik, sadəcə büdcə üçün tutulan xərclərdən azad olunmağımızı xahiş edirik. Büdcədəki 11 milyard manatlıq kəsiri isə onsuz da kasıb mətbuat işçilərinin hesabına ödəmək olmaz" sözləri ilə tamamladı". Bu düşüncələr, bu tələblər qətiyyətli bir insanın mübarizəsinin mahiyyətinə işıq salır və istər-istəməz həssas oxucuda belə bir qənaət yaradır ki, Azərbaycanın müstəqilliyi uğrunda belə bir mübarizə həm də, ilk poliqrafçı alim kimi ziyalıların sayəsində reallığa çevrilib.

Həyat həmişə maraqlıdır. Ən çətin zamanlarda belə. Həyatı maraqlı edən ən çətin zamanların gərginliyinə dözə bilən insanlardır.

*13.03.2020*